# Cahana sığmayan dahi







Bərdə Regional Mədəniyyət İdarəsi tərəfindən tabe müəssisələrdə - uşaq musiqi və incəsənət məktəblərində, klub müəssisələrində, kitabxanalarda, tarix-diyarşünaslıq muzeylərində, Heydər Əliyev mərkəzlərində, rəsm qalereyalarında "Nəsimi ili" ilə əlaqədar müxtəlif tədbirlər keçirilib.

Bərdə rayon Mədəniyyət Mərkəzində "Nəsiminin söz qüdrəti" adlı ədəbi-bədii gecə təşkil olunub. Tədbirdə qeyd olunub ki, Nəsimi irsinin yeni təfəkkür işığında öyrənilməsi və təbliği əsasən ötən əsrin 70-ci illərindən başlayıb. Həmin dövrdə tarixi-mədəni dəyərlərimizə böyük qayğı göstərən ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı ilə mütəfəkkir şairin hərtərəfli öyrənilməsi, ölkəmizdə və xaricdə tanıdılması istiqamətində mühüm işlər görülüb. Şairin 600 illik yubileyi UNESCO səviyyəsində qeyd olunub, bədii film çəkilib, ədəbi və musiqi əsərləri yazılıb. Tədbirin bədii hissəsində şairin qəzəlləri oxunub, eləcə də muğam üstündə ifa edilib.

Bərdə rayon Mədəniyyət Mərkəzinin filialları olan Divanlı kənd Xalq yaradıcılığı, Mehdixanlı, Mirzalıbəyli, Yenidaşkənd kənd Folklor, Nazırlı, Zümürxan kənd Mədəniyyət evləri, 2, 4 nömrəli şəhər klubları, Türkmən kənd klubu yubileylə bağlı ədəbi-bədii gecələr təşkil ediblər.

Bərdə rayon Mərkəzi Kitabxanası və filialları da əlamətdar yubileylə əlaqədar silsilə tədbirlər təşkil edib. Mərkəzi kitabxanada "Ölümü ilə ölməzlik qazanan şair" adı altında biblioqrafik vəsait hazırlanıb, "İctimai lirikanın görkəmli yaradıcısı" adlı sərgi təşkil edilib.

2 nömrəli şəhər kitabxana filialı, eləcə də Şirvanlı, Mehdixanlı, Xanağalı, Mirzəcəfərli, Türkmən, Mollalı, Kərimbəyli, Qaradəmirçi, Lək, Kətəlparaq, Əyricə, Yeni Əyricə, Böyük Göyüşlü, Bəcirəvan, Mustafaağalı və Cicimli kənd kitabxana filiallarında mütaliə günü, sərgi, poeziya gecəsi, dəyirmi masa, ədəbi-bədii kompozisiya və s. tədbirlər keçirilib.



***

Regional idarənin Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində 18 may – Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Muzeylər və Nəsimi irsi" mövzusunda tədbir təşkil edilib. Məktəbli və tələbələrin Mingəçevir Şəhər Tarix Muzeyinə ekskursiyası təşkil olunub.

M.F.Axundzadə adına 12 nömrəli kitabxana filialında "Nəsiminin qəzəlləri bizə nə deyir" mövzulu tədbir, M.P.Vaqif adına Mərkəzi Kitabxanada isə "Əbədiyyət üfüqündə doğmuş eşq günəşi" mövzusunda poeziya gecəsi keçirilib.

Şəhər MKS-nin M.Müşfiq adına 10 nömrəli kitabxana filialı Ş.İ.Xətai adına 7 nömrəli kitabxana filialı ilə birlikdə "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" mövzusunda poeziya gecəsi keçiriblər.

A.Şaiq adına 8 nömrəli kitabxana filialında "Nəsimi şeiriyyəti və mənəviyyatı" mövzusunda məruzə oxunub. M.Müşfiq adına kitabxanada "2019-cu il Nəsimi ilidir" başlıqlı sərgi təşkil edilib. N.Gəncəvi adına 9 nömrəli kitabxana filialının əməkdaşları şairin 650 illiyinə həsr edilən tədbir keçiriblər. Tədbir çərçivəsində "Məndə sığar iki cahan" başlığı altında sərgi nümayiş olunub və dəyirmi masa keçirilib. H.Cavid adına 11 nömrəli kitabxana filialında isə Nəsimi qəzəllərinin müzakirəsi təşkil olunub.

Üzeyir Hacıbəyli adına 11 illik Musiqi məktəbində "İki cahan şairi" adlı dəyirmi masa, Bülbül adına 2 nömrəli Musiqi məktəbində isə "Böyük hürufi şair Nəsimi" başlıqlı sərgi gerçəkləşib.

***

Tərtər rayon Mədəniyyət Mərkəzində "İki cahana sığmayan böyük şair" adlı dəyirmi masa, mərkəzin Buruc, Dəmirçilər, Evoğlu, Yuxarı Qapanlı, Umudlu, İsmayılbəyli, Qarağacı kənd filialları – mədəniyyət evlərində, Soyulan, Yuxarı Sarıcalı, Səhləbad, Ələsgərli, Bəyimsarov, Borsunlu, Sarov, Rəcəbli kənd klublarında dəyirmi masalar, sərgilər və digər tədbirlər keçirilib.

Mərkəzi kitabxananın Oxuculara xidmət şöbəsinin oxu zalında "Nəsimi ili" mövzusunda, MKS-nin Şəhər kitabxanasında "Məndə sığar iki cahan" başlığı altında dəyirmi masalar, MKS-nin Uşaq şöbəsində "İmadəddin Nəsimi – poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdəti" başlıqlı şeir müsabiqəsi, Qazıyan kənd kitabxana filialında sərgi təşkil edilib.







MKS-nin Zolgörən qəsəbə kitabxana filialında dəyirmi masa, İrəvanlı kənd kitabxana filialında “Gövhəri-laməkan mənəm” mövzusunda tədbir, Soyulan kənd kitabxanasında “Üzünü məndən nihan etmək dilərsən...”, Seydimli kənd kitabxanasında “Nəsimi əzəməti” adlı sərgilər keçirilib, məruzə oxunub. Hüsənli kənd kitabxana filialında “Əbədiyyət günəşi” adlı sərgi və söhbət təşkil olunub, Umudlu kənd kitabxanasında isə “Qəlbləri sözün qüdrəti ilə fəth edən şair” başlığı altında sərgi təşkil edilib.

Tarix-diyarşünaslıq muzeyində yubiley tədbiri, Heydər Əliyev Mərkəzində “Mən bu cahana sığmazam...”, Uşaq musiqi məktəbində isə “Dövrünün mütəfəkkir şairi” adlı dəyirmi masa keçirilib.

***

Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialı olan Hacımahmudlu kənd Diyarşünaslıq klubunda “Əbədiyyət üfüqlərində doğmuş eşq şairi”, Ərəbbəsrə kənd Mədəniyyət evində “Ağıla və qəlbə işıqsaçan şair”, Ərəş kənd Folklor evində “Məndə sığar iki cahan...”, Tanrıqulular kənd Sənətkarlıq evində “Səni bu hüsnü camal ilə görüb...”, Salahlı kənd Folklor evində, “Haqq aşiqi”, Yəldili kənd Mədəniyyət evində “Cahana sığmayan Azərbaycan şairi”, Malbinəsi kənd Mədəniyyət evi və Malbinəsi kənd Uşaq musiqi məktəbi ilə birlikdə “Can ilə həm cahan mənəm...” adlı tədbirlər təşkil olunub. Mədəniyyət mərkəzi və şəhər Yaradıcılıq evinin təşkilatçılığı ilə “Gərçi bu gün Nəsimiyəm...” adlı ədəbi-bədii, musiqili gecə keçirilib.



***

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə reallaşan “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalının Bərdə Regional Mədəniyyət İdarəsi üzrə tədbiri Tərtər şəhərində keçirilib. Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək, festivalın əhəmiyyətini yüksək qiymətləndirib. Bildirib ki, festival Azərbaycan regionlarının mədəni zənginliyi ilə tanış olmağa, bölgələr arasında mədəni mübadiləni gücləndirməyə zəmin yaradır. Sərgidə Qarabağ və Qazax xalçaları da nümayiş olunub. Həmçinin 2019-cu ilin “Nəsimi ili” elan edilməsi ilə əlaqədar olaraq kitab guşəsi təşkil olunub, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib. Oğuz elinin ağsaqqalı Dədə Qorqud obrazının da yer aldığı kompozisiya maraq doğurub. Regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər.

